***Bu il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilmişdir. Bu nüfuzlu aparıcı siyasi təşkilatın ali məclisində Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyev parlaq, dərin məzmunlu giriş və yekun nitqləri ilə çıxış etmişdir. Tədbirdə dövlətimizin başçısının dilindən səslənən olduqca dəyərli fikir və mülahizələr, eləcə də digər natiqlərin çıxışları ölkə ictimaiyyətinin ən müxtəlif təbəqələrinin nümayəndələri tərəfindən dərin maraq və məmnunluq hissilə qarşılanmışdır. Salyan Rayon Ziyalılar Birliyinin sədri, Əməkdar müəllim Allahverdi Piriyev bu barədə fikirlərini bizimlə bölüşərkən dedi:***



# Yeni Azərbaycan Partiyası öz tarixi missiyasını bundan sonra da şərəflə davam etdirəcək

– Mən Yeni Azərbaycan Partiyasının VII qurultayının materialları ilə diqqətlə tanış olmuşam. İlk növbədə, qeyd etmək istəyirəm ki, qurultay möhtərəm Prezidentimiz İlham Əliyevin konseptual çıxışı ilə yadda qaldı. Dövlətimizin başçısı qurultaydakı giriş və yekun nitqlərində ölkə və dünya ictimaiyyəti üçün xüsusi önəm daşıyan bir çox vacib məqamlara toxundu. Ölkə rəhbəri Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurət olduğunu xüsusi qeyd etdi, o dövrdə baş verən hadisələri geniş təhlil etdi. YAP Sədri dahi siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatındakı mühüm rolundan bəhs etdi.

Möhtərəm Prezidentimiz, həmçinin Dağlı Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı proseslərə də toxundu. Bu qələbədə Azərbaycan xalqının, xüsusilə də Milli Ordumuzun rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyevin partiyanın VII qurultayındakı nitqi proqram xarakterli çıxışdır və burada irəli sürülən mühüm vəzifələr ölkəmizin inkişaf və tərəqqisini daha da sürətləndirəcək.

Qeyd etmək lazımdır ki, qurultayda partiyanın rəhbər strukturlarının yenidən formalaşdırılması və digər məsələlərlə bağlı önəmli qərarlar qəbul edildi. Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinin təsdiq edilməsi, partiyanın İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurasına yeni üzvlərin seçilməsi və bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulması bu baxımdan xüsusi qeyd edilməlidir.

Qurultayda səmərəli idarəetmə mexanizminin yaradılması istiqamətində atılan addımlar Yeni Azərbaycan Partiyasının bundan sonrakı dövrdə də ölkənin siyasi həyatında aparıcı qüvvə kimi qalacağına əminlik yaradır. Altı siyası partiyanın Yeni Azərbaycan Partiyasına birləşməsi isə partiyanın yüksək nüfuzunun ifadəsi və məqsədyönlü fəaliyyətinin nəticəsidir. Bu fakt ona dəlalət edir ki, partiya yeni dövrdə ölkədə siyasi dialoq mühitinin gücləndirilməsində mühüm rol oynayacaq.

Bir məqamı xüsusi vurğulamaq istəyirəm. Azərbaycan xalqı hazırda tarixinin ən şərəfli dönəmlərindən birini yaşayır. Belə ki, xalqımız Vətən müharibəsində möhtəşəm uğur qazanaraq öz ərazi bütövlüyünü bərpa etmişdir. Bu parlaq zəfər müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik liderliyi və yüksək qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı, bütün xalqımızın sarsılmaz birliyi sayəsində mümkün olmuşdur. Bir ağsaqqal kimi deyirəm ki, biz bu birliyi bundan sonra da qoruyub saxlamalıyıq.

Azərbaycan Prezidenti qurultaydakı giriş nitqində demişdir: “Əlbəttə ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir. Bu haqda çox danışmaq istəməzdim. Bir daha demək istəyirəm ki, bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi – 44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır”.

Bu gün xalqımızın qarşısında duran əsas vəzifələrdən biri Qarabağın dirçəldilməsidir. Reallıq budur ki, Azərbaycan xalqı hazırda Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə Qarabağı gözəl bir məkana çevirmək üçün hərtərəfli düşünülmüş və ardıcıl işlər görür. Nə gizlədim, bütün bunları müşahidə edəndə adamın qəlbi dağa dönür.

Məlumdur ki, işğalçı Ermənistanın silahlı qüvvələri Qarabağda olmazın vəhşiliklər törədiblər. Onlar evləri, binaları dağıdıblar, ağacları kəsiblər, meşələri yandırıblar. Sanki, bu yerlərdən vəhşi qəbilələr keçibdir. Son günlər xarici diplomatlar, jurnalistlər işğaldan azad edilmiş ərazilərdə tez-tez olurlar. Əcnəbi vətəndaşlar öz gözləri ilə ermənilərin Qarabağda törətdikləri dəhşətli vəhşiliklərin canlı şahidi olurlar. Hamı gördüyündən sarsılır. Qatı erməni millətçiliyinin mahiyyəti, xisləti budur!

Azərbaycan xalqı isə sivil, mədəni, qurub-yaradan xalqdır. Xalqımız o yerləri yenidən bərpa edəcək. Qarabağın həqiqi sahibləri öz doğma ata-baba yurdlarına qayıdacaqlar. Ən yaxın aylar, illər ərzində musiqimizin, muğamımızın beşiyi olan Şuşanın, külli Qarabağın çal-çağırlı, xoşbəxt və firavan günləri başlanacaq.

Tam əminəm ki, xalqımız Qarabağın dirçəldilməsi ilə bağlı qarşımızda duran möhtəşəm vəzifənin öhdəsindən layiqincə gələcək. Bu işə hər birimiz öz töhfəmizi verməliyik. Qarabağın yağı düşməndən azad edilməsi zamanı göstərdiyimiz milli birliyi onun yenidən dirçəldilməsində də nümayiş etdirməyə borcluyuq.

Yeni Azərbaycan Partiyası öz tarixi missiyasını bundan sonra da şərəflə davam etdirmək əzmindədir. Sonda bir daha qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyası möhtərəm Prezidentimiz, partiyanın Sədri cənab İlham Əliyevin həyata keçirdiyi möhtəşəm işləri və yeni quruculuq siyasətini gerçəkləşdirmək üçün onun ətrafında daha sıx birləşərək, Azərbaycanın xoşbəxt gələcəyi naminə bundan sonra da var qüvvəsini sərf edəcək.

***Söhbəti qələmə aldı:***
***Səməd HÜSEYNOĞLU,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

Xalq qəzeti 2021.- 11 mart.- S.6.